Tarix ____

Azerfon MMC
AZ1102, Bakı şəhəri, Nəsimi rayonu, Məmmədcəfər Cəfərov küçəsi, ev 17, 3005-ci məhəllə. Tel.: (+994 12) 498 07 30
www.nar.az

# ABUNƏÇİNİN QEYDİYYAT FORMASI

Abunə nömrəsi ____ SIM kartın seriya nömrəsi ____

Tarif ____ Qiymət (AZN) ____ Qeyd ____ Limit (AZN) ____

Abunə nömrəsi ____ SIM kartın seriya nömrəsi ____

Tarif ____ Qiymət (AZN) ____ Qeyd ____ Limit (AZN) ____

## 1. ABUNƏÇİ HAQQINDA MƏLUMAT

**Fiziki şəxs**

○ Kişi ○ Qadın ○ AR vətəndaşı ○ Xarici vətəndaş ____

Adı ____ Soyadı ____

Ata adı ____ Doğum tarixi ____

Qeydiyyat ünvanı ____

Doğulduğu yer ____

Poçt indeksi ____

Ölkə ____

Əlaqə telefonu ____

E-poçt ____

Sənədin növü ○ Şəxsiyyət vəsiqəsi ○ Passport

Seriya ____ Nömrə ____

FİN ____ Verilib ____

Verilmə tarixi ____ Etibarlıdır ____

**Hüquqi şəxs**

○ Yerli təşkilat ○ Xarici təşkilat

Hüquqi şəxsin adı ____

Hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin sənədinin nömrəsi ____

VÖEN ____

Qeydiyyat ünvanı ____

Ölkə ____

Əlaqə telefonu ____

E-poçt ____

Əlaqə üçün şəxs

Adı ____ Soyadı ____

Ata adı ____ E-poçt ____

Əlaqə telefonu/Faks ____

## 2.SATIŞ MƏNTƏQƏLƏRİ HAQQINDA MƏLUMAT

Satıcının kodu ____ Satış məntəqəsinin kodu ____ Satıcının imzası ____
M.Y.

Distribüterin adı ____ Ünvanı ____

Dilerin adı ____ Ünvanı ____

Mən "Abunəçinin qeydiyyat forması"-nda haqqımda qeyd olunan məlumatın düzgünlüyünə zəmanət verirəm və bunu imzamla təsdiq edirəm

Ad ____ Soyad ____ İmza ____
M.Y.

Qeyd ____

## ABUNƏ MÜQAVİLƏSİ

Hazırkı ABUNƏ MÜQAVİLƏSİ, (bundan sonra "Müqavilə" adlandırılacaq) "____________________" __________20 ____ il tarixində, aşağıda göstərilən şəxslər arasında imzalanmışdır:
Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmış və fəaliyyət göstərən "Azerfon" MMC (bundan sonra "Azerfon" adlandırılacaq) bir tərəfdən, və

ADI, ATASININ ADI, SOYADI

( ____________________________________________ )■
ŞƏXSİYYƏTİNİ TƏSDİQ EDƏN SƏNƏDİN SERİYASI, NÖMRƏSİ, VERİLDİYİ ORQANIN ADI VƏ VERİLMƏ TARİXİ (bundan sonra "Abunəçi" adlandırılacaq) digər tərəfdən.
"Azerfon" va Abunəçi bundan sonra bu Müqavilədə birlikdə "Tərəflər" və ayrı-ayrılıqda "Tərəf" kimi də adlandırılacaq.

**Maddə 1. ÜMUMİ MÜDDƏALAR**

1.1. Bu Müqavilədə nəzərdə tutulmuş şərtlər "Azerfon"un mobil rabitə şəbəkəsinə qoşulan bütün abunəçilərinə tətbiq olunur. Bu Müqavilənin imzalandığı tarixdə qüvvədə olan "Azerfon" xidmətlərinin göstərilməsi şərtləri, qaydaları və xidmətlərin qiymətləri Müqavilənin 7.5-ci bəndi ilə nəzərdə tutulmuş qaydada "Azerfon" tərəfindən birtərəfli qaydada dəyişdirilə bilər.
1.2. Abunəçi bu Müqaviləni imzalamaqla bu Müqavilənin bütün şərtlərini qəbul etdiyini təsdiq edir.

**Maddə 2. ANLAYIŞLAR**

2.1. "SİM kart" - "Azerfon" şəbəkəsində işləməsi üçün Abunəçi tərəfindən istifadəsində olan telefon və ya digər rabitə cihazına quraşdırılan və həmin Abunəçi barədə məlumatı, telefonun təhlükəsizlik məlumatını və fərdi telefon kitabçası məlumatını daşıyan, habelə həmin telefon və "Azerfon" şəbəkəsinin digər komponentləri arasında rabitəni təmin edən Abunəçinin eyniləşdirmə moduludur. "Azerfon"un data xidmətlərinin göstərilməsi üçün təqdim etdiyi SİM kartlar digər "Azerfon" xidmətlərini dəstəkləmir.
2.2. "Rəqəmsal SİM kart (e-SİM)" – fiziki SİM kartdan istifadə etmədən "Azerfon"un mobil rabitə xidmətlərini aktivləşdirməyə və onlardan istifadə etməyə imkan verən rəqəmsal SİM kartdır.
2.3. "GSM/UMTS Nömrəsi/nömrələri" (bundan sonra "Nömrə/nömrələr" adlandırılacaq) - rabitə xidmətlərindən istifadə üçün "Azerfon" tərəfindən Abunəçi üçün ayrılan eyniləşdirmə nömrəsidir/nömrələridir. Abunəçiyə verilən Nömrə/nömrələr yalnız həmin Abunəçi tərəfindən istifadə oluna bilər. Nömrə/nömrələr "Azerfon"a məxsusdur və Abunəçiyə yalnız müvəqqəti istifadə üçün, yəni bu Müqavilənin şərtlərinə əsasən "Azerfon" rabitə xidmətlərinə qoşulma vasitəsi kimi təqdim edilir.
2.4. "Şəbəkə"- "Azerfon" tərəfindən rabitə xidmətlərinin təmin olunması üçün istifadə olunan rabitə sistemləri, qəbuledici və ötürücülər, elektromaqnit dalğalar, tezliklər və digər vasitələrin məcmusudur.
2.5. "Xidmət/Xidmətlər"- Abunəçinin son avadanlığı Şəbəkənin bütün son nöqtələri çərçivəsində sərbəst hərəkət edərək mobil stansiyanın məxsusiləşdirmə kodunu saxlamaqla və radiotexnologiyaları tətbiq etməklə, "Azerfon" tərəfindən göstərilən telekommunikasiya xidmətidir.
2.6. "Tariflər" - "Azerfon" tərəfindən Abunəçiyə göstərilən Xidmətin haqqını, istifadə müddətini və Xidmətin göstərilməsinə dair digər şərtləri əks etdirən, "Azerfon"un www.nar.az ünvanlı rəsmi internet səhifəsində yerləşdirilən ("Azerfon" tərəfindən təklif edilən hər bir tarif paketi üzrə ayrı-ayrılıqda), Müqavilənin 7.5.-ci bəndinə uyğun olaraq, "Azerfon" tərəfindən birtərəfli qaydada dəyişdirilə bilən və bu Müqavilənin ayrılmaz hissəsi hesab edilən qiymət cədvəlləridir (dərəcələridir).

2.7. "Qaydalar" - "Azerfon" tərəfindən hazırlanan və “Azerfon”un www.nar.az ünvanlı rəsmi internet səhifəsində yerləşdirilən, vaxtaşırı olaraq "Azerfon" tərəfindən yenidən baxılan, birtərəfli qaydada dəyişdirilə bilən, müvafiq xidmət növlərindən istifadə üsullarını, şərtlərini, "Azerfon"un ödəniş şərtlərini və digər müvafiq prosedurlarını özündə əks etdirən təlimatlar (məlumatlar) toplusudur.
2.7. "Nömrə daşınması" - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilən qaydalara uyğun olaraq, ümumistifadəli telekommunikasiya şəbəkəsi daxilində Abunəçinin istifadə etdiyi sellülar (mobil) nömrənin (nömrəni saxlamaq şərti ilə) həmin Abunəçiyə sellülar (mobil) xidməti göstərən mobil operatorun telekommunikasiya şəbəkəsindən çıxarılaraq, digər mobil operatorun telekommunikasiya şəbəkəsinə daşınmasıdır (keçirilməsidir).

## Maddə 3. MÜQAVİLƏNİN MÖVZUSU

3.1 Hazırkı Müqaviləyə əsasən, "Azerfon" Abunəçini Nömrə ilə/nömrələrlə təmin edir, açıq rabitə xəttini ayırır və Xidmətlərin göstərilməsini təmin edir, Abunəçi isə öz növbəsində bu Müqavilə və müvafiq Tariflər üzrə nəzərdə tutulmuş qaydada təqdim olunan Xidmətlərdən istifadə edir və Xidmətlərdən istifadəyə görə müvafiq ödənişləri həyata keçirir.
3.2 Abunəçi Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbi şəxs olduğu təqdirdə, seçilmiş Tarifin şərtlərinə müvafiq olaraq Xidmət Müqavilə imzalandıqdan sonra Nömrənin aktivləşdirilməsi tarixindən etibarən 30 (otuz) təqvim günü ərzində təqdim olunur və bu müddətin sonuncu günü Abunəçi tərəfindən Müqavilə üzrə öhdəliklərinin tam icra olunması şərti ilə Xidmətin dayandırılması ilə Müqavilə avtomatik olaraq qüvvədən düşmüş hesab olunur.

## Maddə 4. TƏRƏFLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

4.1. "Azerfon"un öhdəlikləri:
4.1.1. "Azerfon" Abunəçini Abunəçiyə dair məlumatları Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin vahid məlumat bazası üzərindən “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi” vasitəsilə identifikasiya edərək “Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı zamanı tələb olunan şərtlər”ə uyğun olaraq “Azerfon”un və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyininvahid məlumat bazasına onlayn rejimdə elektron formada daxil etdikdən və Abunəçi tərəfindən hazırkı Müqavilə imzalanan tarixdə qüvvədə olan tariflərdən Abunəçinin seçdiyi Tarif üzrə nəzərdə tutulmuş ilkin ödəniş məbləğinin ödənişi həyata keçirildikdən sonra Nömrə/nömrələr və SİM kartla/Sim kartlarla/e-SİM kartla/e-SİM kartlarlatəmin edir və Nömrənin/nömrələrin rabitə xəttini 24 saat müddətində aktivləşdirir;
4.1.2. Abunəçinin müraciəti əsasında ona "Azerfon"un rabitə xidmətləri, onlardan istifadə qaydaları və tarifləri haqqında məlumat verir;
4.1.3. Müqavilənin şərtlərinə uyğun olaraq Xidmətləri yerinə yetirir.
4.2. "Azerfon"un hüquqları:
4.2.1. Abunəçidən onun bu Müqavilə üzrə öhdəliklərinin tam, vicdanla və tələblərə uyğun qaydada icra edilməsini tələb etmək;
4.2.2. Xidmətin və ya Şəbəkənin texniki parametrlərinə, o cümlədən telefonun və digər rabitə vasitələrinin konfiqurasiyasına təsir edə bilən istənilən dəyişikliklər etmək;
4.2.3. Qaydaları və tarifləri Müqavilənin 7.5-ci maddəsi ilə müəyyən edilmiş qaydada birtərəfli qaydada dəyişdirmək;
4.2.4. İstənilən vaxt Abunəçinin balans limitini artırmaq və ya Müqavilə şərtlərini yerinə yetirmədiyi halda onun balans limitini azaltmaq;
4.2.5. Abunəçinin "Azerfon" ilə bir neçə abunə müqaviləsi və ya bir abunə müqaviləsi üzrə istifadəsində bir neçə nömrə olduqda və həmin müqavilələrdən və ya nömrələrdən hər hansı biri və ya bir neçəsi üzrə "Azerfon"a borcu yarandıqda, Abunəçi ilə bağlanmış digər abunə müqavilələri və ya bir abunə müqaviləsi üzrə nömrələrin balans hesablarından müvafiq məbləğləri tutaraq/silərək Abunəçinin "Azerfon"a olan borclarının ödənilməsini təmin etmək;
4.2.6. Eyni Abunəçinin "Azerfon" ilə bağlaya biləcəyi müqavilələrin və ya istifadəsinə veriləcək nömrələrin sayına məhdudiyyət tətbiq etmək;
4.2.7. Hazırkı Müqaviləyə xitam verildiyi halda, bu Müqavilə üzrə Abunəçinin istifadəsinə təqdim edilmiş Nömrəni/nömrələri digər şəxslərin istifadəsinə vermək və ya həmin Nömrədən/nömrələrdən qanunvericiliyə zidd olmayan digər məqsədlər üçün istifadə etmək;
4.2.8. Abunəçinin Müqavilə ilə nəzərdə tutulmuş hüquq və öhdəliklərinə təsir etməyən "Azerfon"un istənilən hərəkətləri barədə Abunəçiyə məlumat verməmək;
4.2.9. Bu Müqavilənin 9.3.-cü maddəsi ilə müəyyən olunan hallarda Müqavilə üzrə öz öhdəliklərinin icra olunmasını dayandırmaq və ya Abunəçiyə məlumat vermədən Müqaviləyə birtərəfli qaydada xitam vermək;
4.2.10. Bu Müqavilənin 2.7.-ci bəndinə uyğun olaraq həyata keçirilən "Azerfon" şəbəkəsindən nömrə daşınması halında digər operatorun şəbəkəsinə daşınan nömrə üzrə öz öhdəliklərinin icra olunmasını dərhal dayandırmaq;
4.2.11. Bu Müqavilənin 2.7.-ci bəndinə uyğun olaraq həyata keçirilən "Azerfon"un şəbəkəsinə nömrə daşınması halında, lakin belə nömrə üzrə əvvəlki telekommunikasiya operatoru qarşısında öhdəliklər tam yerinə yetirilmədiyi təqdirdə, belə nömrə üzrə öz öhdəliklərinin icra olunmasını Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilmiş müvafiq qaydalara əsasən dayandırmaq;
4.2.12. Məlumat üçün müraciət edən Abunəçinin sorğusuna cavab verilənədək müəyyən reklam yayımlamaq. Məlumat xidməti ödənişli olduqda, reklam yayımlanması arayışın dəyərinə daxil edilə bilməz.
4.2.13. “Azerfon” tamamilə öz mülahizəsinə əsasən, o cümlədən lakin bununla məhdudlaşmayaraq, Abunəçi tərəfindən bu Müqavilənin 4.3.3, 4.3.6, 4.3.7 və 4.3.8-ci bəndlərində nəzərdə tutulmuş öhdəliklərin pozulmasına əsaslı şübhələr olduğu təqdirdə, Nömrənin/nömrələrin Abunəçinin müraciəti əsasında hər hansı üçüncü şəxsin adına rəsmiləşdirilməsindən və belə üçüncü şəxsin istifadəsinə verilməsindən imtina etmək hüququna malikdir.
4.3. Abunəçinin öhdəlikləri:
4.3.1. Müntəzəm olaraq balansını yoxlamaq və müsbət olmasını təmin etmək;
4.3.2. Müqavilənin şərtlərinə uyğun olaraq vaxtlı-vaxtında Xidmətlərdən istifadəyə görə yaranmış borcların ödənişini həyata keçirmək;
4.3.3. SİM kart/Sim kartlar/e-SİM kart/e-SİM kartlar və Nömrənin/nömrələrin yeganə istifadəçisi olaraq, onların üçüncü şəxslər tərəfindən mütəmadi və ya daimi istifadəsinə, habelə mütəmadi gəlir (mənfəət) əldə etmək məqsədi ilə kirayəyə və ya icarəyə verilməsinə qətiyyən yol verməmək və üçüncü şəxslərin istifadəsinə görə tam məsuliyyət daşımaq;
4.3.4. "Azerfon"a və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin yerli qurumlarına SİM kartın/Sim kartların/e-SİM kartın/e-SİM kartların (o cümlədən e-SİM kartın aktivləşdirilməsi üçün istifadə edilən QR və ya digər kodların) oğurlanması və /və ya itməsi haqqında dərhal (istənilən halda 6 (altı) saatdan gec olmayaraq) yazılı şəkildə bildiriş təqdim etmək. Istənilən halda, Abunəçi bildiriş anına qədər Xidmətdən istifadəyə görə toplanmış borclar üçün məsuliyyət daşıyır;
4.3.5. Şəxsiyyət vəsiqəsində (və ya ümumvətəndaş pasportunda və ya Azərbaycan Respublikasında daimi və ya müvəqqəti yaşayan əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin fotoşəkilli sənədində), əlaqə məlumatında və bu Müqavilənin icra olunması ilə bağlı tələb olunan məlumatlarda baş verən hər hansı dəyişikliklər barədə "Azerfon"u dərhal (istənilən halda 2 (iki) təqvim günündən gec olmayaraq) yazılı surətdə məlumatlandırmaq;
4.3.6. SİM kart/Sim kartlar/e-SİM kart/e-SİM kartlar və ya SİM kartdakı/Sim kartlardakı/e-SİM kartdakı/e-SİM kartlardakı hər hansı məlumatın surətinin çıxarılmamasını, qanunsuz kommersiya məqsədilə istifadə edilməməsini təmin etmək və ya həmin məqsədlə Sim kartı/Sim kartları/e_SİM kartı/e-SİM kartlarıbaşqa şəxsə mütəmadi və ya daimi istifadəyə, habelə mütəmadi gəlir (mənfəət) əldə etmək məqsədi ilə icarəyə və ya kirayəyə verməmək;
4.3.7. Xidməti, SİM kartı/sim kartları/e-SİM kartı/e-SİM kartları, ödəniş kartlarını və ya Nömrəni/nömrələri üçüncü şəxslərə ikinci əldən (təkrarən) satmamaq, habelə satmaq, istifadəyə, kirayəyə və ya icarəyə vermək məqsədilə, lakin bunlarla məhdudlaşmayan istənilən məqsədlə elan verməmək və belə məhdudiyyətləri pozduğu halda, SİM kart/sim kartlar/e-SİM kart/e-SİM kartlar və ya Nömrə/nömrələr üzərindən baş vermiş istənilən hadisələrə, “Azerfon”a və üçüncü tərəflərə dəymiş bütün zərərə və itkiyə görə qanunvericiliyə uyğun olaraq tam məsuliyyət daşımaq;
4.3.8. Şəbəkə, Xidmət, SİM kart/sim kartlar/e-SİM kart/e-SİM kartlar və ya ödəniş kartlarını hər hansı qeyri-qanuni və ya qeyri-etik məqsədlər, cinayət məqsədləri və ya inzibati xətalar üçün istifadə etməmək;
4.3.9. Şəbəkəyə müdaxilə edən və ya mənfi təsir göstərə bilən qurğulardan istifadə etməmək;
4.3.10. Nömrənin hesabında olan pul vəsaitinin geri ödənilməmək şərti ilə, yalnız "Azerfon"un rabitə xidmətlərinə görə yaranmış borcların ödənilməsi üçün istifadə etmək;
4.3.11. "Azerfon"un tələbinə əsasən Nömrənin depozit hesabına (kredit limitin artırılması və ya rominq xidmətinin aktivləşdirilməsi üçün) əlavə məbləğ ayırmaq;
4.3.12. Nömrənin balans limitini artırmaq və ya azaltmaq üçün "Azerfon"a rəsmi müraciət etmək (e-müraciət, zəng və s.);
4.3.13. “Azerfon”un təqdim etdiyi texniki imkanlar daxilində Nömrənin balasından digər xidmətlərin haqqını ödəmək;
4.3.14. Bu Müqavilədə nəzərdə tutulmuş Xidmətlərdən imtina etmək istədiyi halda, “Azerfon”a bu haqda əvvəlcədən rəsmi yazılı qaydada müraciət etmək;
4.3.15. “Azerfon”un yazılı razılığı olmadan Nömrədən/nömrələrdən üçüncü şəxslərə zəng mərkəzi (telefon məlumat mərkəzi) xidmətləri göstərməmək və Abunəçi tərəfindən seçilmiş Tarif üzrə Nömrə/nömrələr üzrə təqdim edilmiş SMS xidmətindən üçüncü şəxslərə kommersiya və ya digər məqsədlərlə toplu SMS (mesaj) göndərməmək.
4.4. Abunəçinin hüquqları:
4.4.1. "Azerfon"dan bu Müqavilədə müəyyən olunmuş öhdəliklərin yerinə yetirilməsini tələb etmək;
4.4.2. Tətbiq olunan Tariflər və Qaydalara uyğun olaraq, "Azerfon" tərəfindən göstərilən hər hansı rabitə xidmətlərini əlavə etmək və/və ya onlardan imtina etmək;
4.4.3. "Azerfon" tərəfindən təqdim olunan seçim çərçivəsində Tarif paketini seçmək, müvafiq şərtlər və Qaydalara uyğun olaraq, onu digəri ilə əvəz etmək;
4.4.4. Seçilmiş Xidməti müvafiq əhatə dairəsində istifadə etmək;
4.4.5. Bu Müqavilənin qüvvədə olduğu müddət ərzində “Azerfon” tərəfindən müəyyən edilmiş qaydada (Müştəri Xidmətlərinə müraciət etməklə və ya müvafiq qısa nömrəyə SMS göndərməklə) reklamın göndərilməsindən istənilən vaxt imtina etmək və ya yalnız arzuladığı reklamın yayımlanması üçün müraciət etmək.

## Maddə 5. ÖDƏNİŞ ŞƏRTLƏRİ

5.1. Hazırkı Müqaviləyə əsasən Abunəçi tərəfindən istifadə olunan Xidmətin dəyəri icra olunma tarixində qüvvədə olan Tariflərə əsasən müəyyən olunur.
5.2. Abunəçiyə onun Tarif paketinə uyğun istifadə etdiyi Xidmətlərə görə yaranmış borca dair (əvvəlcədən ödənişli olan Xidmətlərə görə ödəmə sənədi əvvəlcədən təqdim olunur) məlumat təqdim olunur (SMS bildirişi və ya hesab-faktura). Abunəçi ödənişi ya əvvəlcədən və yaxud məlumatda göstərilən son ödəmə tarixindən (hər ayın 20-si) əvvəl həyata keçirməyə borcludur. SMS bildirişdə və ya Hesab-fakturada göstərilən məbləğin tam olaraq vaxtında ödənilməməsi bu Müqavilənin şərtlərinin kobud şəkildə pozulması kimi qəbul edilir. Abunəçiyə SMS bildirişin və ya Hesab-fakturanın təqdim olunmaması Abunəçini Xidmətdən istifadə üzrə yaranmış borcu tam şəkildə ödəmək öhdəliyindən azad etmir.
5.3. Abunəçi "Azerfon" tərəfindən müəyyən olunan və bu Müqavilə ilə nəzərdə tutulmuş qaydada, vaxtaşırı olaraq dəyişdirilən Tariflərlə və Qaydalarla nəzərdə tutulan ödəniş şərtlərini pozduqda, "Azerfon” Abunəçiyə gecikdirilmiş hər təqvim günü üçün cəmi borc məbləğinin 0.1%-i həcmində (ümumilikdə 30%-dən çox olmamaq şərti ilə) cərimə tətbiq edə bilər. Abunəçiyə tətbiq olunan cərimələr, onun istifadə etdiyi Nömrənin/nömrələrin hesabından (balansında) və ya depozit hesabından (birinci kredit limit depozitindən, sonra isə rominq depozitindən) "Azerfon" tərəfindən birtərəfli qaydada tutula bilər.
5.4. Abunəçiyə göndərilən hər hansı bildirişin və ya hesab-fakturada göstərilən hər hansı məlumatın, məbləğin və ya tələbin Abunəçi tərəfindən anlaşılmaması, onu həmin hesab-fakturada göstərilən məbləği ödəmək və ya başqa tələbi yerinə yetirmək öhdəliyindən azad etmir. Belə hallarda, Abunəçi göstərilən məbləği ödəməli və sonra "Azerfon"la əlaqə saxlamalıdır.
5.5. Müqavilə üzrə ödənişlər nağd, elektron (nağdsız), bank pul köçürməsi və ya Nar ödəmə kartları vasitəsi ilə həyata keçirilə bilər;
5.6. Ödənişlər Azərbaycan Manatı ilə həyata keçirilir.
5.7. Ödəniş Nömrənin balansına keçirilməlidir.
5.8. Ödəniş bank pul köçürmə vəsitələri ilə həyata keçirilərsə, ödəniş tapşırığında Müqavilənin nömrəsi, hesab-faktura nömrəsi (təqdim olunan halda) və Abunəçinin Nömrəsi/nömrələri göstərilməlidir.
5.9. Rabitə xidmətlərinin dəyərinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, əlavə dəyər vergisi tətbiq olunur.
5.10. "Azerfon" Abunəçinin balans limitini keçməsinə əsaslanaraq, Xidmətdən istifadəyə məhdudiyyətlər tətbiq edə bilər.
5.11. SMS bildiriş və Hesab-faktura "Azerfon" tərəfindən müəyyən olunan formada tərtib edilir.
5.12. Cari aya görə SMS bildiriş və ya hesab-faktura növbəti hesablaşma dövrünün əvvəlində təqdim edilir.
5.13. Müvafiq hesablaşma dövrü ərzində göstərilən, lakin hesab-fakturaya daxil edilməyən Xidmətlərdən istifadə haqqı, o cümlədən rominq zamanı Xidmətlərdən istifadəyə görə yarana biləcək məbləğ növbəti hesablaşma dövrü üzrə təqdim olunan hesab-faktura(lar)da öz əksini tapmalıdır.
5.14. Abunəçi "Azerfon"a təqdim etdiyi rəsmi müraciəti əsasında, istifadə etdiyi Tarifə əsasən müvafiq məbləğ tutulan fakturanı və yalnız çıxan zənglərin (SMS, MMS, DATA) açıqlamasını (siyahısını və sərfiyyatı) və beynəlxalq rominq zamanı daxil olan zənglərin açıqlamasını (siyahısını və sərfiyyatı) əldə edə bilər.
5.15. Hazırkı Müqaviləyə əsasən göstərilən Xidmətlərə görə hesab-faktura Abunəçi tərəfindən müəyyən edilmiş ünvana (elektron poçt, qeydiyyat və ya faktiki ünvanı), Abunəçiyə və ya Abunəçinin səlahiyyətli nümayəndəsinə təqdim edilir. Abunəçinin ünvanına göndərilən bütün hesab-fakturalar Abunəçinin özünə təqdim edilmiş hesab olunur. "Azerfon"dan asılı olmayan səbəblərə görə SMS bildirişin və ya hesab-fakturanın çatdırılmaması Abunəçi tərəfindən həmin hesab-fakturanın ödənilməməsinə əsas ola bilməz və buna görə "Azerfon" məsuliyyət daşımır. Hesab-fakturanın Abunəçiyə çatdırılmasından asılı olmayaraq, Abunəçi "Azerfon"un müvafiq Xidmətlərindən istifadə etməklə, vaxtaşırı olaraq balansını yoxlamalı və balansın "Azerfon"un Xidmətlərindən istifadə olunması üçün kifayət dərəcədə müsbət olmasını təmin etməlidir.
5.16 Abunəçinin seçdiyi Tarif üzrə aylıq abunə haqqının tutulması onun aylıq balans limitini aşa bilər. Abunəçi istifadə etdiyi Xidmətlərin haqqı da daxil olmaqla, aylıq limiti və abunə haqqının ödənilməsinə görə məsuliyyət daşıyır.

## Maddə 6. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ VƏ MƏHDUDİYYƏTLƏR

6.1. Abunəçi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, bu Muqavilənin şərtlərinin tam və ya qismən yerinə yetirilməməsinə görə məsuliyyət daşıyır.
6.2. "Azerfon" tərəfindən hazırki Müqavilə üzrə öhdəliklərin tam və ya qismən yerinə yetirilməməsi, o cümlədən Xidmətlərin qüsurlu olması nəticəsində Abunəçiyə birbaşa və ya dolayısı ilə dəyən maddi və digər ziyana görə "Azerfon"un məsuliyyəti yalnız həmin Xidmətlərin Tarif paketi ilə nəzərdə tutulmuş dəyəri ilə məhdudlaşır. Abunəçi razılaşır ki, "Azerfon" tərəfindən bu Müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi və ya qüsurla yerinə yetirilməsi nəticəsində Abunəçiyə dəyən hər hansı ziyana görə Abunəçinin "Azerfon"a qarşı bu maddə ilə nəzərdə tutulmuş məsuliyyətdən başqa heç bir tələbi olmayacaqdır.
6.3. "Azerfon" Abunəçinin rabitə xidmətlərindən istifadəsinin nəticələrinə görə heç bir məsuliyyət daşımır.
6.4 Abunəçi bu Müqaviləni imzalamaqla, öz istifadəsində olan Nömrəyə/nömrələrə reklam və/və ya digər əyləncə xarakterli SMS-lərin və /və ya istənilən digər məlumatların daxil olmasına öz razılığını bildirir.

## Maddə 7. ƏLAVƏ ŞƏRTLƏR

7.1. Hazırkı Müqavilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tərtib edilib və tənzimlənir. Tərəflər razılığa gəlirlər ki, hazırkı Müqavilədən irəli gələn və Tərəflər arasında müzakirə yolu ilə həll oluna bilməyən mübahisələr Azərbaycan Respublikasının müvafiq məhkəmə orqanları tərəfindən həll olunur.
7.2. Yuxarıdakı 7.1.-ci bəndin şərtlərinə baxmayaraq, "Azerfon" məhkəməyə müraciət etməzdən əvvəl Abunəçiyə yazılı və ya şifahi bildiriş, məlumat, pretenziya təqdim etmək öhdəliyi daşımır.
7.3. Abunəçi bu Müqavilə və Abunəçinin Qeydiyyat Formasını imzalayaraq razılaşır ki, əhatə dairəsindən və/və ya Abunəçi tərəfindən istifadə olunan avadanlığın keyfiyyətindən asılı olaraq, göstərilən Xidmətlərdə bütün keyfiyyət, tamlıq və etibarlılıq göstəriciləri, Xidmətlərin göstərilməsində mümkün olan kəsilmələr, aravermələr və digər mümkün qüsurlar, xüsusilə də 4.2.2-ci və 8-ci maddələrdə təsnif olunan hallar ona təmənnasız izah edilmişdir və Abunəçi tərəfindən etiraz edilmədən qəbul edilmişdir. Hazırkı 7.3-cü bənddə açıqlanan mümkün qüsurlar nəticəsində Abunəçiyə dəyən hər hansı maddi və ya qeyri-maddi ziyana görə "Azerfon" heç bir məsuliyyət daşımır.
7.4. Abunəçi bu Müqaviləni imzalamaqla razılaşır və təsdiq edir ki, "Azerfon"un video zəng xidmətindən istifadə etdiyi zaman zəng edən və zəngi qəbul edən tərəflər arasında görüntü yaranacaq və həmin görüntünün yaranması nəticəsində Abunəçiyə dəyə bilən hər hansı maddi və ya qeyri-maddi ziyana görə "Azerfon" heç bir məsuliyyət daşımır.
7.5. Bu Müqaviləyə hər hansı dəyişiklik etmək məqsədi ilə (Tariflər və Qaydalara edilən dəyişikliklər də daxil olmaqla) "Azerfon" həmin dəyişiklikləri əks etdirən məlumatı Azərbaycan Respublikası ərazisində əldə oluna bilən kütləvi informasiya vasitəsi ilə yayımlamalı və/və ya www.nar.az ünvanlı rəsmi internet səhifəsində yerləşdirməlidir. Müqaviləyə dəyişikliklərin edilməsi barədə məlumatın kütləvi informasiya vasitələri ilə yayımlanması və ya www.nar.az internet səhifəsində yerləşdirilməsi tarixindən etibarən 10 (on) təqvim günü ərzində Abunəçi tərəfindən "Azerfon"a Müqaviləyə xitam verilməsi barədə rəsmi bildiriş daxil olmadığı təqdirdə, yayımlanmış və ya www.nar.az internet səhifəsində yerləşdirilmiş dəyişikliklər Abunəçi tərəfindən qəbul edilmiş hesab edilir və "Azerfon" tərəfindən tətbiq edilir.
7.6. "Azerfon" tərəfindən bu Müqavilə ilə müəyyən olunan hüquq və öhdəliklərin yerinə yetirilməsinin gecikdirilməsi "Azerfon"un qanuni hüquqlarının məhdudlaşdırılmasına əsas ola bilməz.
7.7. “Azerfon” tərəfindən 1 (bir) abunə müqaviləsi əsasında Abunəçinin istifadəsinə 1 (bir) ədəddən artıq Nömrə verildikdə, həmin Nömrələrdən biri və ya bir neçəsi üzrə Xidmətlərin göstərilməsi müvəqqəti dayandırılarsa və ya həmin Nömrə/nömrələr üzrə Tərəflər arasındakı münasibətlərə xitam verilərsə, Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında abunə müqaviləsi üzrə Abunəçiyə təqdim edilmiş digər Nömrə/nömrələr üzrə münasibətlər davam etdirilə bilər.
7.8. Abunəçi hazırkı Müqaviləni imzalamaqla “Nar+” mobil tətbiqinin şərt və müddəalarının hazırkı Müqavilənin ayrılmaz tərkib hissəsi olduğuna öz razılığını bildirir. Əgər Abunəçi hazırkı Müqaviləni imzalayan zaman “Nar+” mobil tətbiqindən istifadə etmirsə, bu 7.8-ci bənd Abunəçi tərəfindən adı çəkilən mobil tətbiqin şərt və qaydaları həmin mobil tətbiq vasitəsilə təsdiq edildiyi vaxtdan etibarən qüvvəyə minir.
7.9. Abunəçi “Nar+” mobil tətbiqi və (və ya) “Azerfon”un rəsmi satış və xidmət məntəqələri və ya diler (distribütor) şəbəkəsi və ya “Azerfon”un hər hansı digər rəsmi onlayn satış kanalı (platforması) vasitəsilə əməliyyatları (Abunəçinin adına yeni Nömrə rəsmiləşdirilməsi də daxil olmaqla, lakin bununla məhdudlaşmamaqla) “Azerfon” tərəfindən bu Müqaviləyədək Abunəçinin “Azerfon”un telekommunikasiya şəbəkəsində artıq adına qeydə alınmış aktiv Nömrəsinə göndərilmiş birdəfəlik şifrəni (OTP) təsdiq etməklə icra edə bilər. Bu halda, birdəfəlik şifrənin (OTP) təsdiqi Abunəçinin şəxsi imzasının analoqu hesab edilir. Abunəçinin şəxsi imzasının analoqu Abunəçinin şəxsi imzasına bərabər hüquqi qüvvəyə malikdir. Abunəçi şəxsi imzasının analoqu vasitəsilə “Azerfon”un Xidmətlərindən, o cümlədən adına yeni Nömrənin rəsmiləşdirilməsi imkanından yalnız “Azerfon”un telekommunikasiya şəbəkəsində adına qeydə alınmış aktiv Nömrə olduğu təqdirdə istifadə edə bilər. Bu üsulla yeni Nömrə əldə edən zaman Abunəçiyə çap edilmiş yazılı abunə müqaviləsi təqdim edilmir və Abunəçi “Azerfon”un www.nar.az rəsmi veb səhifəsində yerləşdirilmiş və həmin anda qüvvədə olan abunə müqaviləsinin şərt və müddəaları ilə razılaşır və onu imzalamış hesab edilir. Abunəçinin şəxsi imzasının analoqundan üçüncü şəxslərin istifadəsinin hüquqi nəticələrinə görə Abunəçi tam məsuliyyət daşıyır.

## Maddə 8. FORS-MAJOR

8.1. Bu Müqavilə üzrə fors-major hallar dedikdə, Tərəflərin Müqavilə üzrə öhdəliklərini yerinə yetirmələrinin qeyri-mümkün olduğu zəlzələ, daşqın, epidemiya, pandemiya, epizotiya, yanğın, müharibə, inqilab, dövlət çevrilişi, səlahiyyətli hakimiyyət orqanlarının və şəxslərin, habelə səlahiyyətli digər qurumların hüquqi aktları və ya məhkəmə qərarları və digər fövqəladə vəziyyətlər də daxil olmaqla, Tərəflərin iradəsindən asılı olmayan, Tərəflərin məsuliyyət daşımadığı qarşısıalınmaz hallar nəzərdə tutulur (bundan sonra "Fors-major"" adlandırılacaq).
Fors-major hallara məruz qalması nəticəsində Müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilməyən Tərəf həmin öhdəliklərin yerinə yetirilməməsinə görə məsuliyyət daşımır. Buna baxmayaraq, Fors-major hallarına istinad heç bir halda, Abunəçinin Müqavilə üzrə ödəniş etmək öhdəliklərinin yerinə yetirilməməsinə əsas ola bilməz.

## Maddə 9. MÜQAVİLƏNİN QÜVVƏDƏ OLMA MÜDDƏTİ, XİDMƏTLƏRİN DAYANDIRILMASI VƏ MÜQAVİLƏYƏ XİTAM VERMƏ

9.1. Bu Müqavilə onu hər iki Tərəf imzaladığı tarixdən (2.7-ci bəndə uyğun olaraq həyata keçirilən nömrə daşınması halında, belə daşınmanın uğurla həyata keçməsi tarixindən etibarən) etibarən qüvvəyə minir və Müqavilə ilə nəzərdə tutulmuş qaydada xitam verilənədək etibarlı hesab olunur.
9.2. Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbi şəxslər üçün nəzərdə tutulmuş Tariflər üzrə Xidmətlər istisna olmaqla, Abunəçi "Azerfon" tərəfindən müəyyən olunan məntəqələrin birinə yaxınlaşaraq, öz şəxsiyyətini təsdiq edən sənədi və "Azerfon" tərəfindən müəyyən olunan müraciət formalarını doldurub "Azerfon"a təqdim etməklə, bu Müqavilə əsasında göstərilən Xidmətləri istənilən zaman müvəqqəti olaraq, 90 (doxsan) təqvim günündən artıq olmayan müddətə dayandıra bilər. Abunəçi eyni zamanda bu qayda ilə Müqaviləyə xitam vermək hüququna da malikdir. Müqavilə üzrə Xidmətlərin dayandırılması və eləcə də Müqaviləyə xitam verilməsi heç bir halda Abunəçini müvafiq rabitə xəttinin bağlanılma anına qədər Nömrədən/nömrələrdən istifadə nəticəsində yaranmış borclarını ödəmək öhdəliyindən azad etmir.
9.2.1 Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbi şəxslər üçün nəzərdə tutulmuş Tariflər üzrə Xidmətlər istisna olmaqla Abunəçinin müraciəti əsasında müvəqqəti dayandırılmış Xidmətlər Abunəçinin həmin qaydada rəsmi müraciəti əsasında istənilən zaman bərpa oluna bilər. Əgər bu Müqavilə əsasında Xidmətlərin müvəqqəti dayandırılması müddəti keçdikdən dərhal sonra Abunəçi həmin xidmətlərin bərpa olunması məqsədi ilə bu maddədə nəzərdə tutulmuş qaydada "Azerfon"a müraciət etməzsə, bu halda Müqavilə xitam edilmiş hesab ediləcək və "Azerfon" Nömrəni/nömrələri istənilən üçüncü şəxsin/şəxslərin istifadəsinə vermək və ya Nömrədən/nömrələrdən qanunvericiliyə zidd olmayan digər məqsədlər üçün istifadə etmək, eləcə də rabitə xəttini bağlamaq hüququna malik olacaq. Əgər Abunəçi Nömrə/nömrələr aktivləşdirildikdən sonra 90 (doxsan) təqvim günü ərzində Xidmətlərdən imtina edərsə və ya Müqaviləyə xitam verərsə, bu halda Abunəçi "Azerfon"un Xidmətlərindən imtina haqqında müvafiq bildirişi və ya Müqaviləyə xitam verilməsi barədə müvafiq yazılı müraciət formasını "Azerfon"a təqdim etdiyi tarixdə qüvvədə olan Tariflərə əsasən Xidmətlərdən imtina haqqını və ya Müqaviləyə xitam haqqını ödəməlidir.

9.3. "Azerfon" aşağıdakı hallarda və öz seçimi və mülahizəsi əsasında bu Müqavilənin icrasını birtərəfli qaydada dayandıra və ya ona xitam verə bilər:
(a) Abunəçinin bu Müqavilə üzrə Xidmətlərdən istifadəsi nəticəsində "Azerfon"un texnoloji avadanlığına və xidmət keyfiyyətinə mənfi təsir göstərildikdə;
(b) "Azerfon"un avadanlığına aid texniki və ya profilaktik işlərin aparılması ilə əlaqədar olaraq;
(c) Abunəçi tərəfindən "Azerfon"un şəbəkəsi və ya rabitə kanalları vasitəsi ilə "Azerfon"a, hər hansı üçüncü şəxslərə və ya dövlətə ziyan yetirə biləcək xətanın və ya digər qanun pozuntusunun törədilməsini və ya törədiləcəyini güman etmək üçün əsas(lar) olduqda;
(d) Abunəçi tərəfindən Müqavilənin şərtlərinə uyğun olaraq ödəniş öhdəlikləri yerinə yetirilmədikdə;
(e) Müqavilənin 4.3.3-cü, 4.3.6-cı, 4.3.7-ci, 4.3.8-ci, 4.3.9-cu və 4.3.15-ci bəndlərində göstərilən hallar olduqda;
(f) Haqqında kütləvi informasiya vasitəsilə elan edilmiş və ya www.nar.az ünvanlı rəsmi internet səhifəsində yerləşdirilmiş "Azerfon"un hazırda qüvvədə olan tarif paketlərindən və/və ya ayrı-ayrı imtiyazlarından, xidmətlərindən istifadə qaydalarına müvafiq olaraq;
(g) “Azerfon”un www.nar.az ünvanlı rəsmi internet səhifəsində yerləşdirilmiş və Nömrənin/nömrələrin balansına(larına) yüklənmiş məbləğdən(lərdən) istifadə müddətinə(lərinə) müvafiq olaraq;
(h) Abunəçi bu Müqavilə üzrə hər hansı öhdəliyini tam və ya qismən yerinə yetirmədikdə;
(i) Abunəçinin Nömrədən/nömrələrdən istifadəsi nəticəsində “Azerfon”un işgüzar nüfuzuna zərər vurulduğu halda;
(j) Fors-major və qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda;
(k) “Azerfon”un www.nar.az ünvanlı rəsmi internet səhifəsində yerləşdirilmiş şərtlərə uyğun olaraq, Nömrəyə edilmiş ödənişə müvafiq Xidmətdən istifadə müddəti sona çatdıqdan sonra ardıcıl 180 (yüz səksən) təqvim günü ərzində (nömrədə istifadə edilən Tarifdən asılı olaraq “Azerfon”un rəsmi internet saytında fərqli müddət müəyyən edilə bilər və bu halda həmin müddət şamil olunur) nömrənin balansı artırılmadığı halda;
(l) Abunəçi vəfat etdikdə (öldükdə) və ya məhkəmə qaydasında ölmüş elan edildikdə və ya məhkəmə qaydasında itkin düşmüş hesab edildikdə və ya məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə.

Tərəflər bu yazılı Müqaviləni qanunvericiliklə qadağan edilməyən qaydada bağlamaqla onun bütün şərt və müddəalarına öz razılıqlarını ifadə edirlər.

| **“AZERFON” MMC** | | **Abunəçi** | |
|---|---|---|---|
| A. A. S. | İmza | A. A. S. | İmza |
| | M.Y. | | M.Y. |